2020-ci ilin yanvar ayında muxtar respublikada bütün maliyyə mənbələri hesabına əsas kapitala 37013,2 min manat vəsait yönəldilmişdir ki, bu da bir il öncəki göstəricidən 1 faiz çoxdur. Tikinti-quraşdırma işlərinə qoyulan vəsait əvvəlki ilin müvafiq dövrünə nisbətən 1,1 faiz artaraq 34102,1 min manat olmuşdur ki, bu da əsas kapitala yönəldilmiş vəsaitin 92,1 faizini təşkil edir.

2019-cu ildə muxtar respublikada tikinti sahəsində 13049 nəfər işçi çalışmışdır ki, bu da 2018-ci illə müqayisədə 1,7 faiz çoxdur. Tikinti sahəsində bir işçiyə hesablanmış orta aylıq nominal əməkhaqqı 2018-ci ilə nisbətən 5,8 faiz artaraq 516,2 manat olmuşdur.